**Tamilla Əsgərova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail: asgerova.70@mail.ru**

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxana-informasiya sahəsində innovasiya fəaliyyətinin xüsusiyyətləri

**Xülasə:** Məqalədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-informasiya Mərkəzində tətbiq olunan yeniliklər araşdırılır. Mərkəzin iş təcrübəsi əsasında ali təhsilin kitabxana-informasiya təminatının vəziyyəti təhlil olunur. İlk dəfə olaraq mərkəzin mədəniyyət və incəsənət sahəsində ali təhsilin kitabxana-informasiya təminatı üzrə müasir fəaliyyəti öyrənilir.

**Açar sözlər:** təhsil, mütaliə, kitab, elektron resurs, internet, ədəbiyyat.

Bu gün bütün dünyada elmi-intellektual sərvətlər ön sıraya keçmişdir. Çünki, təbii sərvətlərdən fərqli olaraq zəka və intellekt tükənməzdir və o, daimi təkrar istehsal gücünə malikdir. XXI əsrin strateji inkişaf yollarını da intellektual kapital və yeni elmi texnologiyalar müəyyən edir. Son dövrlərdə Azərbaycanın qlobal informasiya məkanına sürətli inteqrasiyası və informasiya cəmiyyəti quruculuğunun nəticəsi olaraq elektron dövlətin yaradılması, elektron elmin təşəkkülü, intellektual mülkiyyət və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılır. Respublikamızda son onillikdə elektron kitabxanalar və ümumilikdə müasir kitabxana-informasiya mühitinin formalaşması sahəsində nəzərə çarpacaq uğurlar əldə edilmişdir. Elektron kitabxanaların formalaşması sahəsində əsaslı işlər ölkə başçısı İlham Əliyevin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi barədə sərəncamlarından sonra daha intensiv aparılmağa başlanılmışdır. Bir çox kitabxanlarda qlobal təcrübə və standartlara inteqrasiya məsələlərində isə müasir inteqrasiya edilmiş kitabxana idarəetmə sistemlərinin, qərb kataloqlaşdırma qaydalarının tətbiqi, elektron arxivlərin formalaşması istiqamətində mühüm layihələr reallaşdırılır (5).

Qloballaşan cəmiyyətdə milli özünüdərki təmin etməkdə ali məktəblərin də rolu böyükdür. Bu barədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli sərvətimiz hesab etdiyi Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi münasibətilə təşkil olunan tədbirdə cənab İlham Əliyevin geniş və məzmunlu çıxışı xüsusi diqqət tələb edir. Belə ki, BDU-nun timsalında nəinki ali məktəblərimizin professor-müəllim və tələbə heyətinə, bütünlükdə hər bir azərbaycanlıya ünvanlanmış bu çıxışdan lazımi nəticələr götürmək də biz

kitabxanaların da üzərinə mühüm vəzifələr düşür.

Hazırda elmi-fəlsəfi və ədəbi-bədii irsin toplanıb saxlanılmasında, cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan ali təhsil müəssisələri kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsi, rəqəmsal informasiya banklarının yaradılması və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm işlər görülür. Həyata keçirilən tədbirlər ölkəmizin ali məktəb kitabxanalarının fondlarında cəmlənmiş zəngin sənəd-informasiya resursları oxucuların kitabxana-informasiya təminatındakı rolunun yüksəldilməsinə xidmət edir (3).

Ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kitabxanası elm, təhsil, mədəniyyət və incəsənətin ayrılmaz tərkib hissəsi kimi milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsində və oxucuların elmi potensialının artırılması istiqamətində səmərəli fəaliyyət göstərir. Qeyd edək ki, professor-müəllim heyətinin və tələbələrin elmi mütaliə prosesini təşkil etmək məqsədilə ADMİU-nun əsasını götürdüyü Bakı Teatr Məktəbində 1925-ci ildən kitabxana fəaliyyətə başlamışdır. Teatr Məktəbinin bazasında 1945-ci ildə Teatr İnstitutunun yaradılması ilə kitabxana yeni inkişaf yoluna qədəm qoymuşdur (1). Belə ki, təşkil olunan institutda yeni ixtisasların açılması və tələbə kontingentinin çoxalması kitabxana fondunun da zənginləşməsinə və istifadəçilərin artımına səbəb olmuşdur. Müstəqillik dövründə hazırkı adı və statusu ilə faəliyyət göstərməyə başlayan universitetində kitabxana-informasiya fəaliyyəti də dövrün tələbləri səviyyəsinə uyğunlaşdırılmağa başlanmışdır. Sevindirici haldır ki, çoxillik tarixi inkişaf yolu keçməklə zəngin sənəd-informasiya resursları fonduna malik elmi kitabxananın formalaşması, kitabxana-biblioqrafiya və informasiya xidməti səviyyəsinin yüksəlməsi ADMİU-nun bütün fəaliyyəti dövründə əldə etdiyi ən mühüm elmi-mədəni nailiyyətlərdən biridir. Araşdırmalar onu da göstərir ki, bu gün ADMİU-nun elmi kitabxanası kimi fəaliyyət göstərən Kitabxana-informasiya Mərkəzi (bundan sonra - Mərkəz) möhtəşəm kitab məbədi olaraq ölkəmizdə mədəniyyətin müxtəlif istiqamətləri, eləcə də sosial, ictimai və humanitar elm sahələri üzrə ən iri ali təhsil müəssisəsi kitabxanasıdır. Mərkəzin son 5 illik fəaliyyətinin təhlili deməyə əsas verir ki, bütün parametrlər üzrə inkişaf etməklə, ADMİU-nun ən əhəmiyyətli struktur bölmələrindən birinə çevrilə bilmişdir. Hazırda mərkəz digər ali məktəb kitabxanalarından sənəd-informasiya resurslarının zənginliyinə, ədəbiyyat çeşidinin rəngarəngliyinə, fəaliyyət dairəsinə, iş prosesinin elmi təşkilinə və avtomatlaşdırılmasına, o cümlədən xidmət səviyyəsinin keyfiyyət göstəricilərinə görə xeyli fərqlənir.

Mərkəzin iş təcrübəsinin öyrənilməsi və nəzəri ədəbiyyatlar deməyə əsas verir ki, kitabxana innovasiyası - ənənələrdən kənara çıxaraq professional işi daha təkmilləşdirilmiş və keyfiyyətcə yeni səviyyəyə çatdıran müasir fəaliyyət (məhsul və xidmətlərin) sahəsində burada mərhələli şəkildə spesifik ənənələr formalaşır (4).

Əvvəlcə vurğulayaq ki, mərkəzdə tətbiq olunan innovasiyalar orijinal, qeyri-standart, yeni ideya, metodiki layihə formalı işlərdir. Burada tətbiq olunan innovasiyalar kitabxana xidmətinin təşkilinə, kitabxana texnologiyası və idarəetməyə yeni yanaşmanı əks etdirir və bütövlükdə mərkəzin inkişafını təmin edir, ayrı-ayrı proseslərin yeni istiqamətdə fəaliyyət göstərməsinə müsbət təsir göstərir. Əlbəttə ki, innovasiya mərkəzin işçisi və oxucusunun intellektual potensialının inkişafında da əhəmiyyətli rol oynayır. Buna görə də, hazırda mərkəzdə virtual kitab sərgiləri, onlayn bazalardan istifadə, oxucu qeydiyyatından başlamış, elektron sorğu, elektron sifariş və sifarişin oxucuya çatdırılmasına qədər bütün proseslərin avtomatlaşdırılması, saytda onlayn məsləhətçi xidməti, virtual ekskursiyalar və s. kimi yeniliklər tətbiq olunur.

Mərkəzin innovasiya fəaliyyətinin əsasını "İRBİS-64" Avtomatlaşdırılmış Kitabxana Sistemi vasitəsilə universitetin tələbə, magistrant, doktorant, dissertant, professor-müəllim heyəti və digər əməkdaşlarına göstərilən kitabxana-informasiya xidmətinin modernləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və elmin analitik-informasiya təminatının optimallaşdırılması təşkil edir (1). Burada innovasiya kimi 2016-cı ildən tətbiq olunan Rusiya Elmi-texniki Kitabxanasının hazırladığı "İRBİS-64" sisteminin əsas özəllikləri sənəd-informasiya resursları fondunun komplektləşdirilməsi və uçotunu, abonement və soraq-axtarış xidmətinin avtomatlaşdırılmasını, internet vasitəsilə oxucuların uzaq məsafədən "on-line" rejimdə ədəbiyyat axtarışı və sifarişini təmin etməsindədir.

Hazırda mərkəzin əməkdaşları sənəd-informasiya resursları fondunun profilə uyğun çap və elektron nəşrlərlə komplektləşdirilməsi və elmi sistemləşdirilməsi, kitabxana-biblioqrafiya proseslərinin kompüterləşdirilməsi, elmi-tədqiqat işlərinin analitik-informasiya təminatının optimallaşdırılması, sənəd-informasiya resursları fondundan səmərəli istifadənin təşkili və elmi-kütləvi tədbirlərin keçirilməsi, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində elmi-tədqiqatların aparılması istiqamətində innovasiya fəaliyyətlərini davam etdirirlər.

İxtisaslaşmış sənəd-informasiya resursları fondunun müntəzəm və planlı şəkildə zənginləşməsi, oxucuların informasiya tələbatlarına uyğun formalaşması və inkişafı məqsədilə ADMİU-nun tədris proqramlarına və elmi-tədqiqat işlərinə uyğun mövzuların təhlili nəticəsində mərkəzdə cari komplektləşmə həyata keçirilir (2). İnternet vasitəsilə müxtəlif veb resursların mütəmadi

araşdırılması nəticəsində profilə uğun yeni nəşrlər müəyyənləşdirilir. Bununla da, sənəd-informasiya resursları fondu ADMİU-nun professor-müəllim heyəti, ayrı-ayrı alim, mütəxəssis və başqa müəlliflərin çap olunmuş nəşrləri, şəxsi kitabxanası, kitab mağazaları və digər mənbələr hesabına zənginləşir. Ölkəmizdə mədəniyyət və incəsənətin müxtəlif istiqamətlərini (teatr, kino, televiziya, rəssamlıq, musiqi və humanitar sahələr) özündə əks etdirən mərkəzin çoxşaxəli və zəngin ixtisaslaşmış fondunun ümumi həcmi 47679 nüsxə sənəd-informasiya resursundan - Azərbaycan və dünya xalqlarının bir çox dillərində kitab, jurnal, kataloq, avtoreferat, dissertasiya, not, fotoalbom, izomaterial, elektron nəşr və qəzet materiallarından ibarətdir.

Komplektləşmə zamanı tətbiq olunan yeniliklərdən biri "İRBİS-64" sisteminin komplektləşdirici işçi yerində "Yeni daxil olan nəşrlər" adlı analitik-informasiya bazasında elektron inventarlaşmadır. Bazaya hər bir nəşrin müəllifi, sərlövhəsi, çap olunduğu ili, nəşriyyatı, yeri, həcmi, nüsxələrinin sayı və daxilolma mənbəyi barədə informasiya daxil edilir. Sənəd-informasiya resurslarının tipoloji və növ təsnifatına əsasən fondun səmərəli formalaşdırılması və nəşrlərdən istifadənin operativliyini təmin etmək məqsədilə "İRBİS-64" proqramının kataloqlaşdırıcı işçi yerində "Azərbaycan kitabı", "Rus kitabı", "Tədris proqramları", "Avtoreferat", "Doktorluq dissertasiyası", "Magistr dissertasiyası", "Elmi-tədqiqat işi" adlı analitik-informasiya bazalarının formalaşdırılması mərkəzin innovativ fəaliyyətinin mühüm istiqamətlərindən biridir.

ADMİU-nun rəsmi www.admiu.edu.az saytında mərkəzin xüsusi veb səhifəsi oxucuların istifadəsindədir. Mütəmadi olaraq səhifənin "Mərkəzin tarixi və bu günü", "Elektron kataloq", "Elektron kitabxana", "Xəbərlər", "Yeni daxil olan kitablar" və "Virtual sərgi" bölmələri təkmilləşdirilir. "Mərkəzin tarixi və bu günü" bölməsində ADMİU-nun 97 illik fəaliyyəti dövründə universitetin kitabxanasının yaranması, inkişafı və müasir vəziyyəti barədə yerləşdirilmiş məlumat verilib. "Elektron kataloq" bölməsində geniş oxucu auditoriyası üçün tərtib olunmuş AZLİBNET Milli İnformasiya-Resurs Mərkəzinin Toplu kataloqu yerləşdirilib. "Elektron kitabxana" bölməsinə daxil etmək məqsədilə tarix, dilçilik, ədəbiyyat nəzəriyyəsi, bədii ədəbiyyat, kulturologiya, musiqi, kino və televiziya, teatr sənəti, rəssamlıq, dizayn və tətbiqi-dekorativ sənət, iqtisadiyyat, informatika və sosial-siyasi mövzulara dair dərslik, dərs vəsaiti və monoqrafiyalar elm sistemləri üzrə qruplaşdırılıb. "Xəbərlər" bölməsində cari ildə görülən işlər haqqında mütəmadi informasiya yerləşdirilir. "Yeni daxil olan kitablar" bölməsində mərkəzin sənəd-informasiya resursları fonduna cari ildə daxil olan nəşrlərin annotasiyalı biblioqrafik göstəricisi yerləşdirilib. "Virtual sərgi" bölməsində fonda daxil olan yeni sənəd-informasiya resursları annotasiya ilə birlikdə oxuculara təqdim olunur.

Bu gün mərkəzin sosial şəbəkələrdə təmsil olunması ona e-kitabxana profilinin əlyetərliliyi, tez qurulması və dərhal istifadəyə hazır olması, qısa müddət ərzində daha geniş kütləyə təsir imkanı, istifadəçilərin xidmətlər haqqında fikirləri nəticəsində xidmət səviyyəsinin yüksəldilməsi, sərhədsiz düşünmə imkanı, sosial media və saytların birgə idarə olunması kimi üstünlüklər verir. Sosial şəbəkələr vasitəsilə mərkəzin əməkdaşları oxuculara yüksək səviyyədə xidmət göstərmək, istifadəçilərlə daha geniş əlaqə yaratmaq və yeni oxucuları cəlb etmək, onlardan arzu etdikləri xidmətlər haqqında məlumat almaq imkanı əldə edirlər.

Mərkəz universitetdə aparılan elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsində, ümumrespublika elektron informasiya məkanına inteqrasiya məqsədilə müvafiq elm sahələrində araşdırma fəaliyyətinin müasir tələblərə uyğun həyata keçirilməsi məqsədilə "İRBİS-64" sistemində yaradılan və qlobal informasiya məkanına inteqrasiya imkanlarına malik olan "Vahid Biblioqrafik Verilənlər" analitik-informasiya bazasını hələ ki, lokal şəbəkədə oxucuların istifadəsinə təqdim edib. Bazanın İnternet vasitəsilə qlobal şəbəkədə informasiya tələbatçılarının istifadəsinə verilməsi istiqamətində müvafiq texniki-proqram təminatının tətbiq olunması üzrə iş davam etdirilir.

Hazırda mərkəzdən istifadə edən oxucuların ümumi sayı 2379 nəfərdir. "İRBİS-64" sistemində yaradılan "Oxucu" bazasında istifadəçilərin qeydiyyatı prosesi elektronlaşdırılıb. Bazada oxuculara aid məlumatlar rəqəmsal formata salınıb. Oxuculara fərdi abonement vasitəsilə ümumi oxu zallarında kitabxana-biblioqrafiya və informasiya xidməti göstərilir. İnternetdən istifadə etməklə elektron nəşr, elmi jurnal və dövri mətbuat materialı oxuculara elektron poçt və ya xarici yaddaş qurğusu vasitəsilə təqdim edilir. Müvafiq mövzular üzrə İnternetdə nüfuzlu jurnallarda axtarış aparmaqda və elmi mənbələri araşdırmaqda istifadəçilərə metodik köməklik göstərilir.

Zənginləşən sənəd-informasiya resursları fondunun təbliği məqsədilə hər il mərkəzdə müxtəlif mövzulara, görkəmli dövlət, elm, mədəniyyət və incəsənət xadimlərinin, yazıçıların, şairlərin yubileylərinə həsr olunmuş ənənəvi və virtual sərgilər təşkil olunur.

Son illərdə mərkəzin sənəd-informasiya resursları fondunun elmi tədqiqi nəticəsində 1900-1940-cı illəri əhatə edən teatr və rəssamlıq sahəsinə aid 150 adda 172 nüsxə nadir və qiymətli nəşr müəyyən olunub (1). Həmin nəşrlər haqqında dolğun məlumatlar "İRBİS-64" sistemi vasitəsilə "Nadir fond" adlı analitik-informasiya bazasına daxil edilib. Nadir və qiymətli nəşrlərin annotasiyalı elmi-biblioqrafik göstəricisinin hazırlanması işinə başlanılıb. Qeyd edək ki, nəşrlərin "Azərbaycanın kitab abidələri" dövlət reyestrinə daxil edilməsi üçün hazırlıq işləri görülür.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin innovasiya fəaliyyəti bundan sonra da mədəniyyət və incəsənət sahələrində elm və təhsilin informasiya potensialının daha da optimallaşdırılması, müəllim-tələbə heyətinə, alim və mütəxəssislərə göstərilən kitabxana-biblioqrafiya və informasiya xidmətinin modernləşdirilməsi səviyyəsini yüksəldəcəkdir.

**Ədəbiyyat:**

1. ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin 2019-cu il üzrə hesabatı
2. Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. - B.: BDU, 2004. - 143 s.
3. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: dərslik. III hissə.- Bakı: Bakı Universiteti, 2010. - 432 s.
4. İsmayılov X.İ. Müasir dövrdə kitabxanaların metodik təminatının bəzi məsələləri// Kitabxanaşünaslıq-biblioqrafiya, 2012. - № 12. S.9-18.
5. Məmmədov E. Elektron kitabxanaların formalaşmasında beynəlxalq təcrübə və standartlar // "E-kitabxanaların formalaşması problemləri" respublika elmi-praktiki konfransı. - Bakı, 15 aprel 2016-cı il. 2016.-S.102-106.
6. http://www.shpl.ru/directories_files/electronic_catalogs/
7. http://elib.shpl.ru/ru/nodes/9347-elektronnaya-biblioteka-gpib

## Особенности инновационной деятельности в библиотечно-информационной сфере Азербайджанского Государственного Университета Культуры и Искусств

**Резюме**

В статье рассматриваются нововведения в библиотечно-информационном центре Азербайджанского Государственного Университета Культуры и Искусств. Анализируется состояние библиотечно-информационного центра. Впервые изучается современная деятельность центра в области библиотечного и информационного обеспечения в сфере высшего образования, а также в области культуры и искусства.

**Ключевые слова:** образование, чтение, книги, электронные ресурсы, интернет, литература.

# Features of activities in the field of the library information at the Azerbaijan State University of Culture and Art

## Summary

The article studies the innovations in the Library Information Center of the Azerbaijan State University of Culture and Art. The properties of the state of library-information provision of higher education are analyzed according to the experience of the center. For the first time, the Center's modern activities in library and information provision of higher education in the field of culture and art are being studied.

**Key words:** education, reading, books, electronic resources, internet, literature